# 2025-ci ildə idxal olunmuş mallara tətbiq edilmiş sadə orta, orta çəkili tarif dərəcələri, “0%” tarif dərəcəsi və sərbəst ticarət sazişlərinin müddəalarına əsasən gömrük rüsumundan azad edilən idxal əməliyyatlarının həcmi barədə məlumatlar

1) **2025-ci ilin 12 ayı üçün orta çəkili tarif dərəcəsi hesablanarkən aşağıdakı parametrlərdən istifadə edilmişdir:**
   a) 12 aylıq idxal əməliyyatlarının həcmi;
   b) 12 ay ərzində toplanmış idxal gömrük rüsumlarının həcmi.

2025-ci il ərzində 24 376 703 280 ABŞ dolları (41 440 495 210 manat) idxal əməliyyatları müqabilində 1 717 919 020 manat idxal gömrük rüsumunun ödənildiyini nəzərə alsaq, bu rəqəm idxal edilmiş malların ümumi gömrük dəyərinin 4,1 faizini təşkil edir (Cədvəl 1).

***Cədvəl 1. Orta çəkili tarif dərəcəsinin hesablanması.***

| İdxal edilmiş malların ümumi gömrük dəyəri (AZN) | İdxal edilmiş mallar üzrə gömrük rüsumlarının məbləği (AZN) | Ortaçəkili tarif dərəcəsi (faizlə) |
|---|---|---|
| **41 440 495 210** | **1 717 919 020** | **4,1** |

2) **2025-ci il üzrə tarif xətləri üzrə sadə orta tarif dərəcəsi 7,6% təşkil etmişdir.**

Sadə orta tarifin hesablanmasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə tətbiq olunan idxal gömrük rüsumlarının dərəcələrinin tarif xətlərinə nisbəti əsasında müəyyənləşdirilir:

Tarif xətlərinin sayı (Txs) – ***10660***

Rüsum dərəcələrinin məcmusu (Rdm) - ***815,1***

***Sadə orta tarif = Rdm/Txs= 815,1/10660=7,6%***

3) ***Müxtəlif mal mövqelərinə tətbiq edilən advalor gömrük rüsumlarının tarif dərəcələri ilə bölgüsü, spesifik gömrük rüsum dərəcələri və onların sayları.*** **(Cədvəl 2)**

***Cədvəl 2. Tarif dərəcələrinin XİF MN üzrə bölgüsü.***

| Tarif dərəcəsi | XİF MN üzrə alt yarımmövqelərin sayı |
|---|---|
| 0% | 3426 |
| 5% | 2034 |
| 15% | 4756 |
| Spesifik | 444 |
| **Cəmi** | **10660** |

4) ***2025-ci il üzrə ölkə ərazisinə idxal edilən malların 18,5 faizi "0" faiz idxal tarif dərəcəsinə cəlb olunmuşdur. (Cədvəl 3):***

***Cədvəl 3. 0% idxal gömrük rüsum dərəcəsinə cəlb edilmiş idxalın həcmi.***

***(ABŞ dolları ilə)***

| Dövr | İdxalın həcmi | "0" dərəcə ilə idxal | "0" dərəcə ilə idxalın xüsusi çəkisi |
|---|---|---|---|
| **01.01.2025-31.12.2025** | **24 376 703 280** | **4 508 275 940** | **18,5%** |

5) ***2025-ci il üzrə ölkə ərazisinə ikitərəfli və çoxtərəfli qaydada imzalanmış sərbəst ticarət sazişlərinin (STS) müddəalarına əsasən idxal gömrük rüsumundan azad edilməklə idxal edilən malların ümumi idxalda çəkisi 12,5 faiz təşkil etmişdir. (Cədvəl 4):***

***Cədvəl 4. STS ölkələrindən gömrük rüsumundan azad edilməklə gətirilən malların idxal həcmi.***

***(ABŞ dolları ilə)***

| Dövr | İdxalın həcmi | STS ölkələrindən idxal | STS ölkələrindən rüsumdan azad edilən idxalın xüsusi çəkisi |
|---|---|---|---|
| **01.01.2025-31.12.2025** | **24 376 703 280** | **3 050 943 420** | **12,5%** |